# Həftəlik Bülleten

**097**
**20 İyun 2025**



- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və layihələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Türkiyənin Kahramanmaraş şəhərində "Azərbaycan" məhəlləsinin açılış mərasimi keçirilib.**

İyunun 19-da Türkiyənin Kahramanmaraş şəhərində "Azərbaycan" məhəlləsinin açılış mərasimi keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tədbirdə iştirak ediblər.

Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan "Azərbaycan" məhəlləsində inşa olunacaq mədəniyyət mərkəzinin onlayn formatda təməlini qoydular.

Zəlzələdən zərər görmüş bir sıra ailələrə yeni mənzillərin açarları təqdim olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan "Azərbaycan" məhəlləsinin açılışını bildirən rəmzi lenti kəsdilər.

Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan "Azərbaycan" məhəlləsini gəzdilər, burada inşa edilmiş mənzillərdə yaradılan şəraitlə tanış oldular.



## ATMİA-nın İdarə Heyətinin sədri Elxan Bəşirov Altqrupun Koordinasiya Qrupunun rəhbəri seçilib.

Azərbaycan Respublikasının İqtisadi Şurasının Sahibkarlıq Fəaliyyətinə Maneələrin Aradan Qaldırılması və Biznes Mühitinin Yaxşılaşdırılması üzrə İşçi Qrupu tərəfindən təşkil olunan Sənaye sahəsində sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin müəyyənləşdirilməsi və müvafiq təkliflərin hazırlanması üzrə Altqrup üzvləri görüş keçiriblər. Görüş zamanı Altqrupun fəaliyyət prinsipləri, qarşıya qoyulan vəzifələr müzakirə olunub, həmçinin, sahibkarlara xüsusi olaraq hazırlanmış economicreforms.gov.az elektron platforması təqdim olunub. Daha sonra Koordinasiya Qrupuna üzvlərin seçilməsi ilə bağlı təlimat təqdim olunub və namizədliyini irəli sürən sahibkarların qeydiyyatı həyata keçirilərək, tərkibi müəyyən edilib. Sonda Altqrupun Koordinasiya Qrupunun üzvlərinin səsverməsi ilə ATMİA-nın İdarə Heyətinin sədri Elxan Bəşirov Koordinasiya Qrupunun rəhbəri seçilib.



**Tikinti sahəsinə dair yeni dövlət standartları qəbul edilib.**

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) tərəfindən AZS ГОСТ 27751:2025 "İnşaat konstruksiyalarının və qrunt əsaslarının etibarlılığı. Əsas müddəalar", AZS EN 845-3:2025 "Daş hörgünün köməkçi elementlərinə dair tələblər Hissə 3: Polad tor şəbəkəsinin üfüqi armaturlanması", AZS EN 490:2025 "Dam örtüyü və divarların üzlənməsi üçün beton dam plitələri və fitinqlər - Məhsul spesifikasiyaları", AZS EN 13877-1:2025 "Beton yol örtükləri - Hissə 1: Materiallar", AZS EN 13877-2:2025 "Beton yol örtükləri - Hissə 2: Beton yol örtüklərinə dair funksional tələblər",AZS EN 15050:2025 "Yığma dəmir-beton məhsullar-Körpü elementləri" dövlət standartları qəbul edilib.Yeni dövlət standartlarının tətbiqində məqsəd beynəlxalq təcrübələr əsasında tikinti materialları,məmulatları və konstruksiyalarının keyfiyyət göstəricilərini müasir tələblərə uyğunlaşdırmaqdır.Dövlət standartları binaların və qurğuların inşaat konstruksiyaları və onların qrunt əsaslarının etibarlılığının təmin edilməsi,eləcə də yükdaşıyan və yükdaşımayan konstruksiyalarda üfüqi daş hörgü tikişlərinin armaturlanması,beton dam örtüyü plitələri,pilləli dam örtükləri,divar üzlükləri və örtükləri üçün fitinqlərə dair texniki tələbləri müəyyən edir.Standartlara həmçinin yerində betonlanan yol örtüklərinin komponentləri və körpü tikintisində döşənək elementi kimi istifadə olunan,fabrikdə istehsal edilən yığma dəmir-beton konstruksiya elementlərinə dair tələblər də daxildir.



**Alüminium ixracı 5 ayda Azərbaycana 81,2 milyon dollar - GƏLİR GƏTİRİB.**

2025-ci ilin yanvar-may aylarında Azərbaycandan 81 milyon 242 min dollar dəyərində 27 min 888 ton alüminium və ondan hazırlanan məmulatlar ixrac olunub.

Dövlət Gömrük Komitəsinə istinadən xəbər verilir ki, alüminium ixracı ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsilə 3 milyon 316 min dollar və ya 3,9%, miqdar ifadəsilə isə 4 min 293 ton, başqa sözlə 13,3% azalıb. 2024-cü ildə isə Azərbaycandan 84 milyon 558 min dollar dəyərində 32 min 181 ton alüminium ixrac olunmuşdu.

Bu dövrdə Azərbaycanın ixrac etdiyi alüminiumun 1 kiloqramının orta ixrac qiyməti 4 manat 95 qəpik olub. Xatırladaq ki, 2024-cü ilin eyni dövründə bu rəqəm 4 manat 47 qəpik idi. Bu da illik müqayisədə 48 qəpik və ya 10,7% artım deməkdir.mBu il ümumi ixracın 0,74%-i, qeyri-neft sektoru üzrə ixracın isə təxminən 5,77%-i alüminiumun payına düşüb.



**Əsas kapitala yönəldilmiş investisiyaların 78 faizi tikinti-quraşdırma işlərinə sərf olunub.**

Cari ilin yanvar-may aylarında əsas kapitala 6 milyard 694,6 milyon manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 0,8 faiz az investisiya yönəldilib.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 21,9 faiz azalıb, qeyri neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi isə 11,7 faiz artıb.

İstifadə olunmuş investisiyanın 3 milyard 363 milyon manatı və ya 50,2 faizi məhsul istehsalı sahələrinə, 2 milyard 236,8 milyon manatı (33,4 faizi) xidmət sahələrinə, 1 milyard 94,8 milyon manatı (16,4 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub.

Əsas kapitala yönəldilmiş investisiyaların 5 milyard 48,7 milyon manatını və ya 75,4 faizini daxili investisiyalar təşkil edib. Əsas kapitala yönəldilmiş investisiyaların 5 milyard 231,4 milyon manatı və ya 78,1 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.



**Azərbaycanda polad boru istehsalı 34%-dən çox artıb.**

Bu ilin yanvar-may ayları ərzində Azərbaycanda 65,1 min ton polad boru istehsal edilib.
Bu barədə Dövlət Statistika Komitəsindən məlumat əldə edilib.
Məlumata əsasən, bu, 2024-cü ilin eyni dövrü ilə müqayisədə 16,7 min ton və ya 34,5% çoxdur.
Bu ilin iyunun 1-i vəziyyətinə hazır məhsul ehtiyatı 2,4 min ton təşkil edib.
Qeyd edək ki, ölkədə metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində 2025-ci ilin yanvar-may aylarında 495,6 milyon manatlıq məhsul istehsal olunub. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə hazır metal məmulatlarının istehsalı sahəsində 9,6 faiz, metallurgiya sənayesi məhsullarının istehsalında isə 12,9 faiz azalma müşahidə olunub.



**Azərbaycan xaricə sement ixracını 31% artırıb.**

2025-ci ilin yanvar-may aylarında Azərbaycandan 22 milyon 613 min dollar dəyərində 350 min 410 ton sement və klinker ixrac olunub.
Dövlət Gömrük Komitəsinə istinadən xəbər verilir ki, sement ixracı ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsilə 6 milyon 367 min dollar və ya 39,2%, miqdar ifadəsilə isə 82 min 820 ton, başqa sözlə 30,9% artıb.
2024-cü ildə isə Azərbaycandan 16 milyon 247 min dollar dəyərində 267 min 590 ton sement ixrac olunmuşdu.
Bu dövrdə Azərbaycanın ixrac etdiyi sementin 1 tonunun orta ixrac qiyməti 64,5 dollar (109,7 manat) olub. Xatırladaq ki, 2024-cü ilin eyni dövründə bu rəqəm 60,7 dollar (103,2 manat) idi. Bu da illik müqayisədə 3,8 dollar və ya 6,3% artım deməkdir.
Bu il ümumi ixracın 0,21%-i, qeyri-neft sektoru üzrə ixracın isə təxminən 1,61%-i sementin payına düşüb.



**ATMİA üzvləri Bakı Expo Mərkəzində keçirilən 6-cı “Yerli Şirkətlərin Tanıtım Sərgisi”ndə iştirak etdilər.**

18.06.2025-ci il tarixində Bakı Expo Mərkəzində keçirilən 6-cı “Yerli Şirkətlərin Tanıtım Sərgisi”ndə ATMİA üzvləri həm ziyarətçi qismində iştirak etdilər, həm də stend ilə təmsil olundular. Sərgidə Enerji-N MMC, İnes Precast, İsfa Group və digər tərəfdaş üzv şirkətlərimizin stendləri ziyarət olundu, təqdim edilən məhsul və xidmətlər haqqında ətraflı məlumatlar alındı. Üzvlərimiz yeni işgüzar əlaqələr quraraq, əməkdaşlıq imkanlarını əldə etdilər. Tədbirdə iştirak edən ATMİA üzvlərimizə təşəkkür edir, sərgidə təmsil olunan üzvlərimizə isə uğurlar arzu edirik.






# TƏDBİRLƏR

**ATMİA və Özbəkistan Tikinti Materialları İstehsalçıları Şurası arasında onlayn görüş keçirildi.**

19 iyun 2025-ci il tarixində ATMİA və Özbəkistan Tikinti Materialları İstehsalçıları Şurası arasında onlayn görüş keçirildi. Qarşılıqlı hörmət və səmimiyyət şəraitində keçən görüşdə tərəflər ticarət əlaqələrinin genişləndirilməsi, tikinti istehsalı sahəsində təcrübə mübadiləsinin vacibliyini vurğuladılar, o cümlədən, qarşılıqlı maraq doğuran məsələləri və iki təşkilat arasında əməkdaşlıq imkanlarını müzakirə etdilər.






## ATMİA üzvləri “III Azərbaycan–Özbəkistan Regionlararası Forumu”nda iştirak etdilər.

20.06.2025-ci il tarixində ATMİA üzvləri Azpromo-nun təşkilatçılığı ilə keçirilən “III Azərbaycan–Özbəkistan Regionlararası Forumu”nda iştirak etdilər. Azərbaycan Respublikasının iqtisadiyyat naziri cənab Mikayıl Cabbarov, Özbəkistan Respublikasının investisiya, sənaye və ticarət naziri cənab Laziz Kudratov, KOBİA-nın İdarə Heyətinin sədri cənab Orxan Məmmədov və Azpromo-nun icraçı direktoru cənab Yusif Abdullayev tədbirdə çıxış etdilər. Sonra üzvlərimiz Özbəkistandan gələn iş adamları ilə biznes əməkdaşlıq imkanlarını müzakirə etdilər.





**Hörmətli Sahibkarlar!**

25–26 iyun 2025-ci il tarixlərində İstanbulda AFEX – Afrika Biznes Forumu və Sərgisi keçiriləcək. Tədbir 45 Afrika ölkəsi daxil olmaqla 52 ölkədən iştirakçını bir araya gətirəcək və Afrika ilə ticarətə dair yol xəritəsi təqdim olunacaq. Forum Türk-Afrika İş Adamları Dərnəyi (TABA) tərəfindən dəstəklənir və yeni biznes əlaqələri üçün mühüm platformadır. Tədbirdə iştirak etmək istəyənlər qeydiyyat üçün əlaqə saxlaya bilərlər.
Tel: 050 250 95 17

anons




**Hörmətli Sahibkarlar!**

25 iyun 2025-ci il saat 11:00-da ATMİA üzvləri və FHN Tikintiyə Nəzarət Agentliyinin iştirakı ilə “Tikintidə təhlükəsizliyə nəzarət” mövzusunda dəyirmi masa keçiriləcək. Görüşdə sahə üzrə aktual məsələlərin müzakirəsini nəzərdə tutulur.

# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: DESIGN TOKYO 2025**
**Tarixlər: 02 - 04 iyul 2025-ci il,**
**Məkan: Tokio Beynəlxalq Sərgi Mərkəzi (Tokyo Big Sight), Tokio (Yaponiya)**
Dizayn məhsulları üçün Yaponiyanın aparıcı ticarət sərgisi. Yalnız komissiya tərəfindən yoxlanılan məhsullar nümayiş etdiriləcək

---

**Sərginin adı: LIFT EGYPT CITY EXPO 2025**
**Tarixlər: 03 - 05 iyul 2025-ci il,**
**Məkan: Qahirə Beynəlxalq Konqres və Sərgi Mərkəzi, Qahirə (Misir)**
Liftlər və Eskalatorlar Texnologiyaları, Qoşmalar və Aksesuarlar üzrə Beynəlxalq Sərgi və Konfrans.

---

**Sərginin adı: INDOBUILDTECH EXPO 2025**
**Tarixlər: 02 - 06 iyul 2025-ci il,**
**Məkan: ICE - İndoneziya Konvensiya Sərgisi, Cakarta (İndoneziya)**
İndoneziya Tikinti və İnteryer Sənayesi Sərgisi. İndoneziyada ən böyük tikinti materialı, memarlıq və interyer sərgisi

---

**Sərginin adı: CBD GUANGZHOU 2025**
**Tarixlər: 08-11 iyul 2025-ci il,**
**Məkan: Çin İdxal və İxrac Sərgisi Pazhou Kompleksi, Quançjou (Çin)**
Çin Beynəlxalq Tikinti və Dekorasiya Sərgisi

---

**AĞCABƏDİ RAYON İCRA HAKİMİYYƏTİ TENDER ELAN EDİR.**

Ağcabədi Rayon İcra Hakimiyyəti açıq tender elan edir.
Elanda Ağcabədi RİH-nin inzibati binasında cari təmir işlərinin satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Musa Kazımov, sektor müdiri-baş mühasib
Email: kazimovmusa@mail.ru
Əlaqə telefonu: +994 21 275 52 08



**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RESPUBLİKA SEYSMOLOJİ XİDMƏT MƏRKƏZİ TENDER ELAN EDİR.**

Azərbaycan Milli Elmlər Akademiyasının Respublika Seysmoloji Xidmət Mərkəzi açıq tender elan edir.
Elanda Tikili və avadanlıqların cari təmiri üzrə işlərin satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

İskəndərov Ramiz, Baş direktorun müavini
Email: amea-rsxm@mail.ru
Əlaqə telefonu: +994 12 497 74 91



**QAZAX RAYONU İCRA HAKİMİYYƏTİ TENDER ELAN EDİR.**

Qazax Rayonu İcra Hakimiyyəti açıq tender elan edir.
Elanda Büdcədənkənar vəsait hesabına Qazax rayonunda Abadlıq işlərinin layihə-smeta sənədlərinin hazırlanması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Qurban Babayev, sektor müdiri baş mühasib
Email: qurban.babayev@qazax-ih.gov.az
Əlaqə telefonu: +994 22 961 40 82



**AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİ TENDER ELAN EDİR.**

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi açıq tender elan edir. Elanda Xarici İşlər Nazirliyinin inzibati binasında və həyətyanı sahəsində təmir işlərinin davamı olaraq cari təmir işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Murad Əliyev, Şöbə müdiri
Email: mt_aliyev@mfa.gov.az
Əlaqə telefonu: +994 12 596 92 57



**"REGİONAL SU MELİORASİYA XİDMƏTİ" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.**

"Regional Su Meliorasiya Xidməti" Publik Hüquqi Şəxsi açıq tender elan edir.Elanda R-3-25 paylayıcı beton kanalının (PK 27+50+PK 45+50, L=1,8 km) beton üzlüyünün və üzərindəki qurğuların əsaslı təmiri nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Elşad Fərəcov, Satınalmaların təşkili və icrasına nəzarət şöbəsinin, Satınalmaların təşkili sektorunun müdiri
Email: elshad.ferecov@rsmx.gov.az
Əlaqə telefonu: +994 12 377 07 70 (601)





**www.atmia.az**